"Səsin sehri"ndən REPORTAJ

Muğam sənətinin bu günü gələcəyimizə inamla baxmağa əsas verir

Xəyalə Rəis

Bu dəfə yolumuzu gənc istedadlar yetişdirən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən saldıq. Məqsədimiz gənc xanəndələrin dərs prosesini izləmək və onların keçdikləri dərslə tanış olmaq idi.

Universitetin beşinci mərtəbəsinə çatmışdıq ki, dəhlizdən gözəl, ahəngli səslər eşidildi. "Musiqi sənəti fakültəsi" tələbələrinin səsi bütün dəhlizə yayılırdı. Kimisi muğam, kimisi xalq mahnıları ifa edirdi. Milli alətlərimizi dilləndirən digər tələbələr də onlara qoşularaq sanki kiçik bir konsert verirdilər. Adamın lap qol-qanad açıb oynamağı gəlirdi. Burada hər otaqdan müxtəlif avaz,

musiqi ritmi və tələbələrin ifaları eşidilirdi. Dəhlizdə "Səsin sehri" adlı kiçik bir lövhə asılmışdı. Lövhədə yazıldığı kimi, burada həqiqətən də səsin sehrinə düşdük.

DÜNYA MƏDƏNİ İRSİNƏ BƏXŞ EDİLƏN ƏN BÖYÜK XƏZİNƏ - MUĞAM

310-cu otaqda muğam ustası, əməkdar artist Teyyub Aslanovla rastlaşdıq. O, tələbələri ilə Azərbaycan xalqının qədim və zəngin tarixinin, mədəni irsinin mühüm bir qolu olan muğam sənətindən danışırdı. Millətin milli özünüdərki, həyat tərzi və soykökünün göstəricisi olan bu zəngin sənət növünün xalqımızın dünya mədəni irsinə bəxş etdiyi ən böyük xəzinə olduğunu deyən Teyyub Aslanov məruzəsini bitirdikdən sonra tələbələrdən onlara çalışmaları üçün verdiyi ev tapşırıqlarını soruşdu. Özü də tələbələri ilə birlikdə muğam ifa etməyə başladı. Müəllim tələbələrin oxuduqları muğamlar haqqında soruşur, sual-cavab edirdi.

Dərs zamanı sanki mini konsert izlədik. Konserti isə tanınmış sənət əhli deyil, bizim gənc tələbələr təşkil etmişdi. Amma onların çıxışları heç də peşəkar ifaçılardan seçilmirdi. Gənc xanəndələrin muğama, musiqiyə olan həvəsini gördükdə, bir daha əmin olduq ki, muğam sənəti doğrudan da bundan sonrakı nəsillərdə öz doğmalığını, mükəmməlliyini qoruyub saxlaya biləcək.

Teyyub müəllim tanınmış xanəndə, mərhum Nəriman Əliyevin rəsmini otağından asdırmışdı. Dərs prosesində tez-tez ondan sitatlar gətirirdi. O, müəllimindən öyrəndiklərini tələbələrinə öyrətdiyini, onun yolu ilə getdiyini dedi. Qonaq olduğumuz "Muğam dərsi"ndə "Musiqi sənəti fakültəsi"-nin 2, 4 və 1-ci kurs tələbələri iştirak edirdilər. T.Aslanov deyir ki, o yalnız muğamı öyrənmək və bu sənətin sirlərinə yiyələnmək istəyən, həqiqətən də muğamı sevən tələbələrə dərs keçir.

"ÇAHARGAH" FƏAL MÜBARİZƏ RUHU İLƏ FƏRQLƏNİR

Otaqda muğam ifaçılarından əlavə, digər fakültələrin tələbələri də vardı. Belə ki, onlar milli musiqi alətimiz olan sazla gənc xanəndələri müşayiət edirdilər. Tarda ifa edən tələbələrdən Zabil Camallı, Vüsal Qasımov da müəllimin əl hərəkətləri ilə bacarıqlarını nümayiş etdirirdilər.

Tələblərdən Qəmbər Axundov, Zəminə Əhmədova, Əli Səlimov "Mahur hindi" muğamının Bərdaşt, Maye, Üşşaq beytlərini ifa etdilər. İfadan sonra ustad-müəllim tələbələrinə bu muğamın məcmusunu izah etdi. Bildirdi ki, "Mahur hindi" muğam dəstgahı "Rast" muğam ailəsinə daxildir. "Rast" dəstgahından kvarta yuxarı qurularaq, onun variantını təşkil edir. Məqam tonallığına görə də mayəli rasta əsaslanır. Bu muğam "Bərdaşt", "Mayeyi-Mahur", "Üşşaq", "Hüseyni", "Vilayəti", "Şikəsteyi-fars", "Əraq", "Qərai" şöbə və guşələrindən ibarətdir.

Xanəndə dərs prosesində bizə bildirdi ki, onun sinfində "Estrada müğənnisi" fakültəsində oxuyan tələbələr də var. Yəni, estrada janrında oxuyan tələbələr də Azərbaycan muğam sənətinin dərinliklərinə yiyələnmək istəyirlər. Həmin tələbələrdən Tapdıqova Suma muğam ifaçılarına qoşularaq "Bayatı Kürd" muğamını ifa etdi.

Xanəndənin göstərişi ilə tələbə Əlfəttin Kərimov "Çahargah" muğamını səsləndirdi. İfadan sonra Teyyub Aslanov klassik sənət incisi kimi tanınan və sevilən "Çahargah" muğamının çox fəal mübarizə ruhu ilə fərqləndiyini tələbələrinin diqqətinə çatdırdı: "Çahargah" muğamının musiqisi təzadlı intonasiyalarla çox zəngindir. "Mayeyi-Çahargah" şöbəsində bədii obraz daha geniş miqyasda və intensiv halda inkişaf etdirilib təsdiqlənir. "Çahargah" muğamında "Maye" şöbəsinin həlledici rolunu və əhəmiyyətini sübut edən başlıca amillərdən biri budur ki, həmin şöbə "Hasar" və "Mənsuriyyə" adlı şöbələrdə də öz inkişafını davam etdirir və daha dramatik,

daha mübariz xarakter alır. Bu, bir də onunla əlaqədardır ki, "Mayeyi-Çahargah" fəal, intensiv inkişaf üçün çox yararlı olan "narahat" intonasiyalara malikdir".

İSLAM OLAN MƏCLİSDƏ CABBAR SEGAH OXUMAMAĞA ÇALIŞIRMIŞ

Müəllim tələbələrinə "maye" sözünü "su" ilə səhv salmamalarını bildirdi. Dedi ki, burada söhbət gündəlik istifadə etdiyimiz sudan getmir. Maye muğamın mayası, yəni əsası, kökü kimi başa düşülməlidir.

Bundan sonra xüsusi səs diapozonuna malik olan tələbələrdən Günay Mehdiyeva "Mirzə Hüseyn" segahını ifa etdi. Sonra Teyyub müəllim dedi ki, "Mirzə Hüseyn" segahı "Segah" muğam ailəsinə daxil olan dəstgahdır. İlk dəfə Mirzə Hüseyn adlı Azərbaycan xanəndəsi tərəfindən ifa olunduğundan onun adı ilə adlandırılmışdır.

Əvvəlində "Müxalif" şöbəsi var. Xan Şuşinski onu ifa edərək muğama gətirib. Xanəndələr üçün bu segahın yaranma tarixini bilmək çox maraqlıdır: "Sabah semestr imtahanlarında sizə bu suallar ünvanlana bilər. Tələbə oxuduğu muğamın tarixini bilməlidir. Sizə sual edə bilərlər ki, "Mirzə Hüseyn" segahı kimlərin ifasında daha çox yaddaşlarda qalıb? Qeyd edə bilərsiniz ki, Xan Şuşinski bu segahı daha gözəl oxuyub. Yaqub Məmmədovun ifasında bu muğam daha çox yaddaşlarda qalıb. Bir çox xanəndələr bu muğama müraciət ediblər. "Çahargah" muğamından danışanda bizim yadımıza ilk olaraq Seyid Şuşinski düşür. Çünki o, "Çahargah" muğamını elə gözəl ifa edib ki, bu muğam da onun adı ilə bağlanıb. "Çahargah" deyəndə Alim Qasımov, Sabir Mirzəyev də yada düşür. "Segah" deyəndə Segah İslam yada düşür. O, Xan Şuşinskinin müəllimi olub. Segahı elə oxuyub ki, ona Segah İslam təxəllüsü veriblər. Cabbar böyük xanəndə olub. Amma İslam olan məclisdə Cabbar çalışırmış ki, segah oxumasın. Bu məlumatları tələbələr bilsə, çox yaxşıdır. Həmin muğamları keçəndə, sizə onların tarixi, özü haqqında geniş məlumat verəcəyəm".

Bununla da dərs başa çatdı. Sonda xanəndə-tələbələri bir araya yığaraq xatirə şəkli çəkdirdik.